# Bələdiyyə Parkı - Sumqayıtın yaşıl və abad guşəsi

**Sumqayıtın mərkəzində yerləşən Bələdiyyə Parkı - şəhər sakinlərinin mədəni istirahəti üçün yaradılmış bu yaşıl məkan son vaxtlar aparılan genişmiqyaslı abadlıq işləri nəticəsində daha da müasir görkəm alıb. Parkın abadlığını şəhər bələdiyyəsi aparır. Onların çoxu da elə istirahət saatlarını bu məkanda keçirir.**





Səliqəli yürüş yolları, estetik oturacaqlar və yenilənmiş yaşıllıq zolaqları buranı şəhərin cazibədar mərkəzinə çevirib. Xüsusilə axşam saatlarında parkda qurulan işıqlandırma sistemi ətrafı sehrli gözəlliyə bürüyür.

Sakinlər burada həm dincəlir, həm də ailəvi gəzintilər üçün münasib şərait tapırlar. Uşaqlar üçün salınan əyləncə meydançaları, idman avadanlıqları və fəvvarələr istirahəti daha da rəngarəng edir. Parkın mərkəzində qurulan açıq səhnə mədəni tədbirlərin keçirilməsi üçün ideal məkandır. Hər yaşdan olan insanların özünü rahat hiss etdiyi bu park şəhər həyatına yeni bir nəfəs, yeni bir ruh gətirir. Burada hətta həvəskar müğənnilər mikrofon götürərək öz məharətlərini göstərirlər. Həzin və ürəkoxşayan musiqi sədaları ətrafa xoş ovqat bəxş edir.

Park təkcə istirahət yeri deyil, həm də şəhərin abadlıq və urbanizasiya baxımından nümunəvi layihələrindən biridir. Bu yaşıllıq guşəsi Sumqayıtın inkişaf edən simasının bir parçası olaraq daim yenilənr. Bir sözlə, Bələdiyyə Parkı Sumqayıtın bu gününə gözəllik, sabahına ümid bəxş edən, insanlara içdən rahatlıq gətirən, şəhərin gur həyatından bir addım uzaqda yaşıl, əsrarəngiz məkandır.

*İlhamə MƏMMƏDOVA,*
*Sumqayıt şəhər sakini*

Azərbaycan.-2025.- 8 iyul (№ 137).- S.10.